

*İSMAYIL MƏRCANLI İMANZADƏ*

## ZƏFƏRİN MÜBARƏK, VƏTƏN

*Allah bütün şəhidlərimizə rəhmət eləsin!*

Xoş günlərdən soraq verir,
Axşamın-səhərin, Vətən!
Düşmənlərə göz dağıdır
Hər təzə Zəfərin, Vətən!
İgid-ərən oğulların
Tapdayıb bəndi-bərəni,
Bir həmləylə sevindirdi
Xocalını, Əsgəranı,
Xocavəndi, Ağdərəni...
"Dəmir Yumruq"dan güc aldı
Qatlanmaz qanadın-qolun!
Qırdın paslı qıfılını
Xankəndiyə gedən yolun!
Qarşında tab gətirmədi
Zülmə sipər olan "barı".
Diz çöküb, aman dilədi
Səndən harsın dığaları...
Başın sağolsun... yenə də
Haqq yolunda cəngə çıxıb,
Candan keçənlərin də var!
Qanlı şəhid köynəyiylə
Ulu Tanrı Dərgahına
Vaxtsız köçənlərin də var...
Qalibiyyət simvoludur
Üç rəngli bayrağın sənin!
Bütövləşən sərhədlərin
Sabahkı növrağın sənin!..
Türkün-türkə can borcu var,
Nə yalqızsan, nə tək, Vətən!
Hünərindən soraq verən
Zəfərin Mübarək, Vətən!
21.09.2023

## ÖZÜNƏ ƏL AÇ, BACIM

*"Görən bizim axırımız noolacaq"- deyən yaşlı bir qadına*

Yalqız qalsam da hərdən,
Ümidim bir ovuc dən...
Axı, necə tapım mən,
Dərdinə əlac, bacım!

Haqq soraqlı bəndəyəm,
Sünbüldəyəm, dəndəyəm.
Özüm də sən gündəyəm,
Nə toxam, nə ac, bacım!

Halıdılar izimdən,
"Zəhər" yağmır üzümdən...
Yayınmayıb gözümdən,
Heç vaxt ehtiyac, bacım!..

Titrəyib əsəs-əsə,
Gəzmə zülmətdə nəsə...
Umud olma heç kəsə,
Özünə əl aç, bacım!
02.10.2023

## MƏN BELƏ ADAMAM...

Mən bir az zəhmli, ciddi adamam,
Yersiz danışmağım yadıma gəlmir.
Doğrunun-dürüstün rəddi adamam,
Həddimi aşmağım yadıma gəlmir.

Vecsiz birisinə baxmışam gendən,
Dodağım qaçmayıb şit zarafatdan.
Təkcə ömrüm boyu həzz almışam mən,
Sözdəki mənadan, sözdəki daddan.

İnancım olmayıb qulaqlarıma,
Hər sözün başına ip salmamışam.
Kiməsə əl açmaq gəlib arıma,
Özgə kölgəsinə qısılmamışam.

Nahaqdan üzümə ağ olanların
Sonralar keçmişəm günahlarından.
Sərt üzün görsəm də çətin anların,
Çəkmişəm gözümü dünya varından...

Kəsmişəm hardasa haqsızın səsin,
Sanmayın bir aciz-kölə adamam.
Kiminsə xöşuna gəlir, gəlməsin
Mən lap... əzəl gündən belə adamam...
06.09.2023

## SUÇUNDAN YIXILAN ADAM

İç üzü kirli-paslı,
Çölü parlaq-qalaylı.
Bilən yoxdur xisləti
Neçə qat, neçə laylı...
Kimlərəsə sırmaşıb,
Yuxarı qalxan adam.
Arşın udubdu bəlkə,
Hamıya elə üstdən
Aşağı baxan adam!

Kiminsə taleyini
Bir az abad görəndə,
Birini könlü açıq,
Gülərüz, şad görəndə,
Rəngi saralıb-solan,
Yatağına qor dolan...
Hirsindən-hikkəsindən
Qanı-şəkəri qaxıb,
Yanıb-yaxılan adam!

İçindəki zülmətdə
Ömrü boyu yol azan,
Əl-ayağa dolaşıb,
Ev yıxan, halay pozan.
Xəyalı düyün düşüb,
Fikri burxulan adam.
Sonda... elə diriykən
Suçundan-günahından
Qəfil yıxılan adam!..
22.03.2023

## DÜNYA SEVİLMƏYƏ LAYİQ DEYİLMİŞ

Aldandıq dilinə hər addımbaşı,
Getmədi bir kəslə heç vaxt yanaşı.
Əzəli toy-büsat, sonu göz yaşı,
Dünya sevilməyə layiq deyilmiş!

Məzlumu tapdayıb saldı urvatdan,
Zalıma yol açdı "yeddinci qat"dan.
Bolluca vəd verdi... çıxartdı yaddan,
Dünya sevilməyə layiq deyilmiş!

Saldı aralığa ayrı-seçkilik,
Nə elm başa keçdi, nə savad, bilik...
"Şahlıq qapısı"nda söz cilik-cilik,
Dünya sevilməyə layiq deyilmiş!

Pərsəngə züy tutdu mizan-tərəzi,
Şeytandan törətdi kini, qərəzi.
Cəng imiş, savaşmış qorxunc mərəzi,
Dünya sevilməyə layiq deyilmiş!

Yalanı dillərdə "albayraq" etdi,
Məddahı həm sütun, həm dayaq etdi.
Düz sözü fırladıb baş-ayaq etdi,
Dünya sevilməyə layiq deyilmiş!
24.07.2023

## ULU SƏNƏT MƏBƏDİDİR TİKDİYİN...

*Əziz dostum, görkəmli şair-publisist, nasir Əli Rza Xələfliyə*

Dünyaya göz açdın Dağ Xələflidə,
Səni xəlq edənə əhsən, ay Dədə!
Gəzib dolaşmadın heç vaxt, heç vədə,
Sənətin tapdanmış qırağın, Qağa!

Sevdalı qəlblərdə sözdü əkdiyin,
Ulu sənət məbədiymiş tikdiyin.
Bədxahın, nadanın qəddin büküyün
Hər kəlmən, paslanmaz "yarağın", Qağa!

Şeirin misra-misra gəldikcə dada.
Qovuşdun ən halal şöhrətə-ada.
Həm könül mülkündə, həm "Kredo"da.
Günəştək nur saçdı çırağın, Qağa!

Elə əzəl gündən addımın mətin,
Yol tapmaz qəlbinə nə qəzəb, nə kin...
Tanrı sovatıdır şairlik təbin,
Və bir də qələmin, varağın, Qağa!

Yurda əmanətsən Gordu Babadan,
Ruhun təzələnir söküləndə dan.
Sənət gülşənində ismin bir ünvan,
Gəlir hər tərəfdən sorağın, Qağa!
14.05.2023

## PAYIZ ÇİÇƏYİ

Qısılma çəməndə-çöldə küncə sən,
Yazdan nişanəsən indi, məncə sən.
Hələ al yanaqlı, qönçə-qönçəsən,
Rəngin qaralmamış aç, görüm səni.

Yağışa-çiskinə düşsən də nə qəm,
Təki bəxtin sənə etməsin sitəm.
Axtarıb yerini tapa bilməsəm,
Xallı kəpənəktək uç, görüm səni.

Yaz səni payıza verib beh kimi,
Dilsiz doğulmusan bəlkə meh kimi.
Sübh çağı üstünə düşən şeh kimi
Gözümdə tez şölə saç, görüm səni.

Durna harayından başlayanda köç,
Özün öz hökmünlə öz səmtini seç.
Üzünə açıqdır qapım... tez ya gec
Üşüsən yanıma qaç, görüm səni...
10.09.2023

## MƏNİM SƏNLƏ NƏ İŞİM...

Bizimki tutmaz heç vaxt,
Hərəmiz bir biçimdə.
Çıx get, səbrim qəfildən
Daşa bilər içimdə...

Sevincim gərəyinsə
Qoy, yarı bölüm, apar.
Kölgəmi daşlayınca
Dilimdən xoş söz qopar!

Kəsişəndə yolumuz
Sən sola dön, mən sağa.
Ya mən səbrimi basım,
Ya sən çəkil qırağa...

Nəyimiz şərikdi ki
Böləm, çıxıb gedəsən.
Bəlkə budur niyyətin-
Öləm, çıxıb gedəsən!

Xoşuna gəlməsə də
Boy-buxunum, yerişim,
Dinməz getsən yolunla,
Mənim sənlə nə işim?!
03.23.2023

## GEDİRİK

Puç olmuş ümidlər zülmət dərədi,
Dönük bəxt keçilməz səddi-bərədi.
Dünya sınıq-salxaq bir pəncərədi,
Bircə yol gözucu baxıb gedirik.

Nə torpaq, daş-kəsək, nə dağ deyilik,
Sevincdən, qüssədən uzaq deyilik.
Üzü-üzlər görmüş qonaq deyilik,
Əcəl "get"-deyəndə çıxıb gedirik.

İmdad diləsək də arzu-diləkdən,
Hər ötən günümüz keçir ələkdən...
Kəfənə bələdik elə bələkdən,
Bəlkə kölgəmizdən qorxub gedirik?

Gizli oyunsa da, çox qəribədir
Bilmirik həyatın mənası nədir.
Ömrümüz nişangah, ölüm güllədir,
Özümüz tətiyi çaxıb gedirik.
31.03.2923

## YALTAQ ADAMLARIN QİBLƏSİ OLMUR...

Yaltaq adamların qibləsi olmur,
Gah sağa burxulur, gah sola onlar.
Yalançı kəslərin tövbəsi olmur,
Hər vaxt gəc baxıb düz yola onlar.

Vəzifə əhlinin ayağı altda,
Döşənib bir ovuc toza dönürlər.
Birinə sırmaşıb toyda-büsatda,
Bir anda "işvəyə-naza" dönürlər.

Peysərə verirlər deyilənləri,
Sırtılmış üzləri "padoş"dan betər.
Bəlkə də əzəldən zaydı "gen"ləri,
Bəzisi binamus oğraşdan betət...

Qalxıb tribunaya fürsət düşəndə,
Tərif yağdırırlar birinə onlar.
Yurdun dar günündə dayanıb gendə,
Batıblar günahın kirinə onlar...

Əyilə-əyilə başa keçəndən
Dönüblər ən "yağlı" söyüş yerinə.
"Pay-püş"ə həsrətlə baxanda gendən
Qaçıblar iblisin "örüş" yerinə...

Nə halal qazanca, nə də düz yola
Zatı qırıqların həvəsi olmur.
Gah sağa üz tutur, gah dönür sola.
Yaltağın, məddahın qibləsi olmur.
22.04.2022

## GÖZÜMÜ DİKMİŞƏM OYAQ ŞƏKLİNƏ

Sönmüş bir ocaqda sızlayan küləm,
Məni səslədinmi yanına gələm?
Qarşımda ağ vərəq, əlimdə qələm,
Baxırdım elə hey bayaq şəklinə.

Alıb-aldatmağı etmədim peşə,
Qamaşdıra bilməz gözümü şüşə.
Qoymadım könlümdən sürüşüb düşə,
Oldum kipriyimlə dayaq, şəklinə.

Dilim gəlməz deyəm bir vaxtlar heçdin,
Təkcə harayasa tələsən köçdün...
Yuxumda təzədən qarşımdan keçdim,
Açdım hər sirrimi oyaq şəklinə.

Uymadım hər gələn səsə-soraşa.
"Cızıqdan" çıxmadım heç vaxt qırağa...
Dost üzə baxırsa, düşmən ayağa,
Mən necə göz dikim ayaq şəklinə?!
04.08.2023

## YAŞDA NƏ GÜNAH VAR AXI

Böhtanın tez çıxır boyu,
Nə çoxmuş iblisin tayı...
Kəsək bulandırır suyu,
Daşda nə günah var axı?!

Yamanlıq duranda üzə,
Dərd qənim kəsilir bizə.
Dildi kül üfürən gözə,
Başda nə günah var axı?!

Qəlb ömrün acısın dadan,
Yamanca fəndgirmiş nadan...
Gözdür adamı aldadan,
Qaşda nə günah var axı?!

Haqsızlıq səbri daşdıran,
Yalan söz göz qamaşdıran...
Ağılmış başı çaşdıran,
Yaşda nə günah var axı?!
09.10.2023

**(Davamı 9-cu səhifədə)**

*(Əvvəli 8-ci səhifədə)*

## HƏLƏ SEVƏNLƏRİM VARMIŞ HEÇ DEMƏ

Məni qınamasın bəxti yeyinlər,
Öz alın yazımdan qaça bilmədim.
Qarşımda sədd imiş gizli düyünlər,
Cəhd etdim... heç birin aça bilmədim.

Yuxudan oyandım qızaranda dan,
Atlı qarışqatək yükümü dartdım.
Özgə kölgəsində daldalanmadan
Sözlə damla-damla çoxalıb artdım.

Qoymadım başımı rahat balınca,
Ehtiyac üstümə yağdı qar kimi.
Öz nakam eşqimin baxdım dalınca,
Süddən yanıq qalmış uşaqlar kimi...

Bir ömür yaşadım sevincli-qəmli,
Nə boynumu bükdüm, nə qamətimi.
Hərdən görünsəm də kipriyi nəmli,
Yersiz "xərcləmədim" dəyanətimi.

Bir himə bəndəm ki kükrəyib daşam,
Məni bənzətməyin ağıldan kəmə.
Elə bilirdim ki unudulmuşam,
Hələ sevənlərim varmış heç demə...

14.08.2023

## GƏLMİŞƏM

Bir qalam kösövəm-odam,
Bükülmüş qolam-qanadam.
Çoxlarına hələ yadam,
Bir az uzaqdan gəlmişəm.

Tapdansam da torpaq kimi,
Dözdüm hər dərdə dağ kimi...
Yaşıl üzlü yarpaq kimi
Kökdən-budaqdan gəlmişəm.

Kürün avazı-səsiyəm,
Xan Arazın bəstəsiyəm.
"Qarabağ şikəstəsi"yəm,
Dildən-dodaqdan gəlmişəm.

Bələd olsam da "arxına",
Qarışmamışam axına.
Əslim bəllidir çoxuna,
Halal torpaqdan gəlmişəm.

Alnım açıqdır, üzüm ağ,
Nə astaram, nə də yamaq...
Söz mülkünə min il qabaq,
Ya da bayaqdan gəlmişəm.

Sevincli-qəmli yuvayam,
Nə cəngəm, nə də davayam.
Bir udum suyam, havayam
Saflaşıb Haqdan gəlmişəm.

22.08.2023

## HƏLƏ GÖRÜLƏSİ XEYLİ İŞİM VAR

Hər günüm, hər anım səsli-soraqlı,
Ömür "gündəliyim" min bir varaqlı.
Doğma elim-obam Arazqıraqlı.
Nə iti xəncərəm, nə paslı sancaq,
Öz xəttim, öz imzam, öz yerişim var.
Yolumu kəsənlər olsa da, ancaq -
Hələ görüləsi xeyli işim var!

Hərdən yanıb-sönən işıq deyiləm,
Sazı qırıq telli aşıq deyiləm.
Yanılıb aldanan uşaq deyiləm,
Niyə daldalanım hardasa axı,
Nə gizli sifətim, nə keçmişim var...
Gəzib-dolaşsam da aranı-dağı -
Hələ görüləsi xeyli işim var!

Əzəldən halına heç yanmasam da,
Sözdü dilimdəki ən şirin tam da...
Ürəyim çırpınır yazı masam da.
Heç zaman "ütülü" olmayıb yolum,
Həm sərt bir yoxuşum, həm enişim var.
Niyə ömrün-günün cəngində qalım -
Hələ görüləsi xeyli işim var!

Paxılım, bədxahım, yamanım olub,
Səbrimə, "dur" deyən amanım olub.
Bir tikə sonuncu gümanım olub.
Üstümdən qarayel keçsə də belə,
Yaxşı ki dözümüm, ağlım-huşum var.
Hələ dönməliyəm doğma bir elə
Hələ görüləsi xeyli işim var!

12.10.2023

## AĞLA, AĞLAMALI GÜNÜNDÜ, AĞLA

*Qarabağda yüzlərlə günahsız soydaşımıza qanlı divan tutmuş Vaqif Xaçaturyan həbs olunanda timsah kimi gözünün yaşını axıtmağa başladı...*

Sənin əlin qanlı, mənliyin bərbad,
Xocalı qətlamı damağında dad.
Qisas qiyamətə qalmazdı, cəllad,
Diz çök, millətimin önündə ağla -
Ağla, ağlamalı günündü, ağla!

Sən idin "miatsum" deyib ulayan,
Qarabağı viran qoyub, talayan...
De, gəlsin hayına Zori Balayan,
Hərdən öz dilində-dinində ağla -
Ağla, ağlamalı günündü, ağla!

Baban Andranik xəcil-tayqulaq,
Nənən Anahitə soykökün calaq.
Ay niyyəti şikəst, arzusu çolaq
Sızlayan səsində-ünündə ağla -
Ağla, ağlamalı günündü, ağla!

"Dəmir Yumruq" dəyən kimi başına,
Dar qəfəsdə dəm verdin göz yaşına.
Öz suçundu, gördün... çıxdı qarşına,
Hələ yox, çırağın sönəndə ağla -
Ağla, ağlamalı günündü, ağla!

15.10.2023